**Hörmətli Vahid müəllim,**

Sizi və rəhbərlik etdiyiniz Auditorlar Palatasının bütün kollektivini qurumun yaradılmasının 30 illik yubileyi münasibətilə Azərbaycan Qiymətləndiricilər Cəmiyyəti İdarə Heyətinin və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Ötən otuz il ərzində Auditorlar Palatası ölkəmizdə şəffaflığın təmin olunması, maliyyə nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğun audit xidmətinin formalaşması yolunda böyük və şərəfli bir yol keçmişdir. Bu gün Palata Azərbaycanda bazar iqtisadiyyatının sütunlarından biri olan peşəkar nəzarət infrastrukturunun mühüm tərkib hissəsidir.

Xüsusilə vurğulamaq istərdim ki, Auditorlar Palatası ilə Azərbaycan Qiymətləndiricilər Cəmiyyəti arasındakı səmərəli əməkdaşlıq ölkəmizdə biznes mühitinin sağlamlaşdırılmasına və peşəkar xidmətlər sektorunun inkişafına mühüm töhfələr verməkdədir. Sizin peşəkar fəaliyyətiniz və sahəyə verdiyiniz elmi-praktiki töhfələr hər zaman yüksək qiymətləndirilir.

**Hörmətli Vahid müəllim,**

Bu əlamətdar gündə Sizə və Palatanın bütün üzvlərinə möhkəm cansağlığı, fəaliyyətinizdə yeni-yeni uğurlar və Azərbaycan iqtisadiyyatının qüdrətlənməsi naminə apardığınız işlərdə müvəffəqiyyətlər arzulayıram.

**Azərbaycan Qiymətləndiricilər**
**Cəmiyyətinin (AQC) İdarə Heyətinin sədri** **Vüqar Oruc**